# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 161** **Bakı şəhəri, 16 mart 2024-cü il**

***"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 21 avqust tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya vasitələri və qurğularının sertifikatlaşdırılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 21 avqust tarixli 1 7 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 558 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya vasitələri və qurğularının sertifikatlaşdırılması Qaydaları"na aşağıdakı məzmunda 4.15-ci bənd əlavə edilsin:

"4.15. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ölkəyə idxal edilən RV-lər barədə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin informasiya sistem-lərindən aşağıdakı məlumatları real vaxt rejimində əldə edir:

4.15.1. məhsulun bəyan edilmə tarixi;

4.15.2. məhsulun xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə kodu;

4.15.3. məhsul partiyasının qeydiyyat kodu;

4.15.4. məhsulun təsviri;

4.15.5. məhsulu idxal edən şəxs barədə məlumat (hüquqi şəxsin adı, fiziki şəxsin soyadı, adı, atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN).".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2024.- 20 mart, № 62.- S.10.